**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

**DOI: 10.59610/bbu1.2023.174-182**

*Aslanov Habil Hüseyn oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Biznes Universiteti*
*E-mail:dosent1966@mail.ru*
*© Aslanov H.H., 2023*

***«Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi və regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir».***

**Ümummilli Lider Heydər Əliyev**

**UOT - 339.5**

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ DÖVLƏTİN İQTİSADİYYATA MÜDAXİLƏSİNİN ZƏRURİLİYİ VƏ ÜSTÜNLÜKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## X Ü L A S Ə

Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı olan Ümummilli Lider Heydər Əliyev iqtisadiyyatda müasir tələblərə cavab verən dövlət tənzimlənməsi sisteminin də əsasını qoymuş, mürəkkəb bir şəraitdə inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan səmərəli dövlətçilik mexanizmini formalaşdırmışdır.

Azərbaycanda müstəqil dövlət quruculuğu, onun bazar iqtisadiyyatı prinsipləri əsasında həyata keçirilməsi və ölkəmizin beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu üzvünə çevrilməsi respublikamızda iqtisadiyyatın, o cümlədən xarici iqtisadi əlaqələrin tənzimlənməsi sistemi qarşısında olduqca mühüm və tamamilə yeni vəzifələr qoyurdu.

Bütövlükdə, müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi heç bir sivil ölkədə inkar edilmir. Azad bazar iqtisadiyyatı müasir cəmiyyətin bütün sosial iqtisadi problemlərini həll etmək iqtidarında deyil, buna görə də bazar iqtisadiyyatının tənzimləyə bilmədiyi sahələrdə dövlətin iqtisadiyyata müdaxiləsi zərurət halını alır. Dünya təcrübəsi göstərir ki, hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Demək olar ki, bütün ölkələrdə dövlət iqtisadi, eləcə də sosial inkişafa köklü dərəcədə təsir qabiliyyətinə malikdir. Məqalədə məhz bu və digər məsələlərin öyrənilməsinə diqqət yetirilmişdir.

**Açar sözlər:** iqtisadiyyatın dövlət tənzimlənməsi, dövlətin iqtisadi funksiyaları, iqtisadi siyasət, iqtisadi sistem, iqtisadi təhlükəsizlik, bazar iqtisadiyyatı, tarif tənzimlənməsi.

## G İ R İ Ş

Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı olan Ümummilli Lider Heydər Əliyev iqtisadiyyatda müasir tələblərə cavab verən dövlət tənzimlənməsi sisteminin də əsasını qoymuş, mürəkkəb bir şəraitdə inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan səmərəli dövlətçilik mexanizmini formalaşdırmışdır.

**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

İqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi missiyası Cənab İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir.

Tarixi təcrübə göstərir ki, ölkə o zaman yaxşı nəticələr əldə edə bilir ki, öz qarşısına həyata keçirilməsi mümkün olan real vəzifələr qoymuş olsun.

Ölkə qarşısında duran problemlər kompleksindən ən vacibini seçmək və iqtisadi siyasəti həmin istiqamətə yönəltmək dövlət başçısından böyük ustalıq tələb edir. Bu barədə iqtisadi nəzəriyyədə hazır resept yoxdur. Dünya dövlətlərinin müsbət təcrübəsi də həmişə oriyentir rolunu oynaya bilməz. Hər ölkə inkişafın müxtəlif mərhələlərində dayanır və konkret dövrdə hər bir ölkə qarşısında fərqli prioritet vəzifələr dayanır. Ölkə qarşısında duran konkret vəzifələri seçmək və cəmiyyəti, dövlət orqanlarını, ictimai təşkilatları və vətəndaşları həmin vəzifələrin yerinə yetirilməsinə istiqamətləndirmək iqtisadi inkişafın açarıdır [7, s.128].

Bir sözlə, dövlətin əsas funksiyası cəmiyyət qarşısında duran təməl vəzifələrin müəyyən edilməsi və onların həyata keçirilməsi üçün qüvvələrin səfərbər edilməsidir. Bu baxımdan Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda xarici ticarətin liberallaşdırılması və tənzimlənməsi istiqamətləri üzrə mühüm addım "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" 24.06.1997-ci il, "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" 17.12.1996-cı ildə fərmanları xüsusi əhəmiyyət kəsb edir [7, s.249].

Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində və ölkələr arasında qarşılıqlı asılılığın daha aydın təzahür etdiyi bir zamanda hər bir ölkənin və regionun müvəffəqiyyəti onun xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan dövlət tənzimlənməsi, o cümlədən gömrük tənzimlənməsi mexanizminin tətbiqindən çox asılıdır.

Məlum olduğu kimi, yenicə müstəqillik əldə etmiş ölkənin iqtisadi siyasətinin formalaşması uzun tarixi dövr tələb edən bir məsələdir. Lakin müstəqillik əldə etdikdən sonra yaranmış özünəməxsus tarixi dövr respublikamızda bu prosesin qısa müddət ərzində sürətlə formalaşmasını tələb edirdi. Məsələ bu baxımdan nəzərdən keçirildikdə aydın olur ki, 1992-1994-cü illər ölkənin iqtisadiyyatı ciddi tənəzzülə məruz qalmışdır, iqtisadiyyatın geniş miqyasda liberallaşdırılması şərtləri olduqca ağır idi. Ona görə də iqtisadiyyatda liberallaşdırma əslində yalnız 1994-cü ildən məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilməyə başladı. Eyni zamanda ölkəmizdə iqtisadiyyatın, o cümlədən xarici ticarətin tənzimlənməsi də bir sistem kimi bu dövrdən formalaşmağa başlamışdır.

Azərbaycanda müstəqil dövlət quruculuğu, onun bazar iqtisadiyyatı prinsipləri əsasında həyata keçirilməsi və ölkəmizin beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu üzvünə çevrilməsi respublikamızda iqtisadiyyatın, o cümlədən xarici iqtisadi əlaqələrin tənzimlənməsi sistemi qarşısında olduqca mühüm və tamamilə yeni vəzifələr qoyurdu [7, s.247].

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi heç bir sivil ölkədə inkar edilmir. Azad bazar iqtisadiyyatı müasir cəmiyyətin bütün sosial iqtisadi problemlərini həll etmək iqtidarında deyil, buna görə də bazar iqtisadiyyatının tənzimləyə bilmədiyi sahələrdə dövlətin iqtisadiyyata müdaxiləsi zərurət halını alır. Dünya təcrübəsi göstərir ki, hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. İqtisadiyyata dövlət müdaxiləsi yolu ilə sosial problemlərin və digər cəmiyyət üçün vacib olan problemlərin həlli

**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

həyata keçirilir. Demək olar ki, bütün ölkələrdə dövlət iqtisadi, eləcə də sosial inkişafa köklü dərəcədə təsir qabiliyyətinə malikdir.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qlobal proseslər inkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər onların taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır.

Dünyada gedən proseslər birmənalı şəkildə göstərir ki, XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir. İqtisadi qloballaşma və inteqrasiya prosesləri əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və işçi qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta-maliyyə, elmi-texniki, sosial, xarici iqtisadi siyasətin razılığı ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri bu yolla öz istehsal güclərinin, istehsalın səmərəliliyinin artırılmasına nail olur və bunların məntiqi göstəricisi kimi əhalinin rifah səviyyəsinin yüksəlməsinə cəhd edirlər. Bu baxımdan qloballaşma şəraitində dövlətin roluna xüsusi diqqət yetirmək məqsədəuyğun olardı. Bir çox ölkələr qloballaşmanın təsiri altında öz iqtisadi-sosial oriyentirlərini dəyişməyə, ümummilli məqsəd və vəzifələrini ikinci plana keçirmək məcburiyyətində olurlar. Burada dövlət belə bir özünəməxsus problemlə üzləşir: milli təsərrüfatların artan iqtisadi asılılıq şəraitində o öz ənənəvi makroiqtisadi tənzimləmə alətlərindən (milli valyuta, ixrac baryerləri, rüsumlar, kvotalar) səmərəli istifadə edə bilmir. Bu da öz növbəsində dövlətin iqtisadi funksiyalarının transformasiyasına gətirib çıxardır.

Qloballaşma prosesləri dünya dövlətlərini elə bir həddə çatdırıb ki, onlar beynəlxalq sistemlə qarşılıqlı əlaqədə olmadan öz mövcudluqlarını davam etdirə bilməzlər. Dövlətlərin qarşılıqlı asılılığının dərinləşməsi onların həm xarici, həm də daxili siyasət sferasında azad seçimini məhdudlaşdırır. XXI əsrin əvvəlində dünyada üç minə yaxın iqtisadiyyatın, siyasətin, ekologiyanın müxtəlif sahələrini tənzimləyən beynəlxalq təşkilatlar mövcuddur. Bununla əlaqədar beynəlxalq təşkilatların dövlətin suverenliyinə hansı dərəcədə təsir etdiyi mübahisə obyekti olmağa davam edir.

**Dövlətin iqtisadiyyata müdaxiləsinin nəzəri təhlili**

Dünya təcrübəsi göstərir ki, hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Azad bazar iqtisadiyyatı müasir cəmiyyətin bütün sosial iqtisadi problemlərini həll etmək iqtidarında deyil, buna görə də bazar iqtisadiyyatının tənzimləyə bilmədiyi sahələrdə dövlətin iqtisadiyyata müdaxiləsi zərurət halını alır.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi heç bir sivil ölkədə inkar edilmir. Azad bazar iqtisadiyyatı müasir cəmiyyətin bütün sosial iqtisadi problemlərini həll etmək iqtidarında deyil, buna görə də bazar iqtisadiyyatının tənzimləyə bilmədiyi sahələrdə dövlətin iqtisadiyyata müdaxiləsi zərurət halını alır. İqtisadiyyata dövlət müdaxiləsi yolu ilə sosial problemlərin və cəmiyyət üçün vacib olan digər problemlərin həlli həyata keçirilir. Demək olar ki, bütün ölkələrdə dövlət iqtisadi, eləcə də sosial inkişafa köklü dərəcədə təsir qabiliyyətinə malikdir. Ona görə də iqtisadi biliklər çərçivəsində bu vacib və əhatəli problemə həsr olunmuş tədqiqat işləri və təhlillər aparılır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudlarının müəyyən

AUDİT 2023, 1 (39), səh. 174-182.
AUDIT 2023, 1 (39), pp. 174-182.
АУДИТ 2023, 1(39), стр. 174-182.

edilməsi, gözlənilməsi müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin başlıca problemi hesab olunur.

Dövlətin bazar iqtisadiyyatını tənzimlənməsini zəruri edən bir sıra amilllər vardır ki, bunlara da aşağıdakıları aid etmək olar.

- xarici effektlər (estrenallar) probleminin bazar tərəfindən nəzərə alınmaması. Bir tərəfin digər tərəf üzərində yaratdığı idarə oluna bilməyən təsirlərinə eksternallar deyilir. İqtisadi nəzəriyyədə mənfi eksternallar, əlavə xərclərin yaranmasına və ümumi vəziyyətin pisləşməsinə gətirib çıxaran effektlərə deyilir. Buna misal olaraq, ətraf mühitin çirklənməsini göstərmək olar;
- sosial ədalətlilik probleminə bazarın biganə olması. Bazar mexanizmi iqtisadi sosial ədalət məsələrini həll etmək iqtidarında olmadığı üçün, dövlət bu situasiyanı vergilər, transfertlər və s. kimi mexanizmlərlə tənzimləyir;
- dövlət tənzimlənməsini zəruri edən makroiqtisadi situasiyaların meydana gəlməsi. Bura da ki, inflyasiya proseslərini, işsizlik, makroiqtisadi qeyri-sabitlik, büdcə kəsrinin aradan qaldırılması problemlərini aid etmək olar;
- bazar mühitinin dövlət tərəfindən tənzimlənməsi zəruriliyi. Dövlət hüquqi tənzimləmə yolu ilə "oyun qaydalarını" təyin edir, onun əsas iqtisadi agentlər tərəfindən həyata keçirilməsinə nəzarət edir, ədalətsiz rəqabət mühitini aradan qaldırır, iqtisadi fəaliyyətin bir çox tərəflərini reqlamentləşdirir;
- antiinhisar tənzimlənməsinin obyekti olan inhisarlaşma tendensiyası. Bu tənzimlənmədə əsas yeri inhisar fəaliyyətinin məhdudlaşdırılması, rəqabətin stimullaşdırılması, açıq iqtisadiyyat siyasəti, yeni müəssisələrin yaradılması tutur;
- ictimai sərvətlərin, məhsulların istehsalında bazarın kifayət dərəcədə maraqlı olmaması;
- bazar mexanizmləri vasitəsilə fundamental elm və texnika sahəsində kəskin irəliləyişlərin qeyri-mümkünlüyü;
- ölkə regionlarının kəskin diferensiasiyası;
- dövlətlərarası səviyyədə xarici ticarət əlaqələrinin tarazlığını təmin etmək üçün iqtisadiyyatın tənzimlənməsi zəruriliyi və s. [3, s.26].

Dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsi və dövlətin iqtisadiyyata təsiri üç istiqamətdə həyata keçirilir. Bunlar səmərəliliyin artırılması, qeyri-bərabərliyin müəyyən qədər aradan qaldırılması və makroiqtisadi sabitliyin stimullaşdırılmasıdır. Yəni dövlət iqtisadiyyatın əks təsirinə müvafiq olaraq müdaxilə siyasəti yerinə yetirməklə iqtisadi inkişafa təkan verir. Onu da qeyd edək ki, dövlətin iqtisadiyyatı özünə tabe etdirmək cəhdi iqtisadi durğunluğa aparır, dövlət iqtisadi inkişafa bu və ya digər sahədə təsir göstərməklə onu deformasiyaya uğradır ki, bunun özü də inkişafda yeni və yaxud müsbət meyillərin yaranmasına gətirib çıxarır. Bazar iqtisadiyyatında dövlət fəaliyyətinin mümkün təsirini fərqləndirməklə onun rolunu müəyyən etmək mümkündür. Bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadiyyatı tənzimləmə obyektlərinə iqtisadi tsikllər, iqtisadiyyatın sahə, regional, təkrar istehsal və sosial sturukturu, məşğulluq və kadrların hazırlanması, əhalinin gəlirləri və həyat səviyyəsi, sosial və əmək münasibətləri, əhalinin müdafiəsi mexanizmi, pul dövriyyəsi, qiymətlərin səviyyəsi və antiinflyasiya prosesləri, investisiya aktivliyi, elmi-tədqiqat və təcrübə-layihə işləri, rəqabət şəraiti və anti-

**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

inhisar tədbirləri, tədiyyə balansı, ətraf mühit, xarici iqtisadi əlaqələr və s. aiddir. [1, s.103].

Dövlətin iqtisadiyyatı tənzimləmə subyektlərinə aiddir:

– iqtisadi maraqların daşıyıcıları: yəni müəyyən qruplarda birləşən;

– əhali, o cümlədən sahibkarlar və s.;

– iqtisadi maraqları ifadə edənlər: bura iqtisadi maraqların daşıyıcılarının fikir və tələblərini ifadə edən təşkilatlar, qruplar aiddir;

– iqtisadi maraqların icraçıları: bura dövlət orqanları, hakimiyyət institutları (nazirliklər, komitələr, və təşkilatlar və s.) aiddir [1, s.104].

Bazar iqtisadiyyatında dövlət tənzimləmə vasitələrinə üstünlük verərək ölkənin sosial iqtisadi inkişafını proqnozlaşdırır; iqtisadiyyatın strukturunun yenidənqurulmasını həyata keçirir; özəlləşdirmə yolu ilə mülkiyyətin çoxnövlülüyünü reallaşdırır; antiinhisar tənzimləmə tədbirlərini tədbiq edir; əlverişli investisiya mühiti formalaşdırır; elmi-texniki tərəqqinin nailiyyətlərinin reallaşdırılmasını təmin edir, pul tənzimlənməsini həyata keçirir, dövlətin maliyyə-vergi siyasətini reallaşdırır; istehsal qüvvələrinin yerləşdirilməsini təyin edir; əhalinin sosial müdafiə və təminatını həyata keçirir; dövlət satınalmalarını müəyyənləşdirir; xarici iqtisadi fəaliyyət istiqamətlərini müəyyən edir; ətraf mühitin mühafizəsi və resurslara qənaəti təmin edir və bütün bu proseslərin hüquqi bazasını yaradaraq təkmilləşdirir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin iqtisadiyyata təsirinin maksimal və minimal hədləri mövcuddur. Müdaxilənin minimal həddi dedikdə, dövlətin iqtisadiyyatı tənzimləməklə bağlı həyata keçirdiyi 3 funksiya nəzərdə tutulur. Bunlar aşağıdakılardır:

– əhalini ictimai məhsullarla təmin etmək;

– iqtisadiyyatı lazımi pul kütləsi ilə təmin etmək;

– xarici effektləri tənzimləmək.

Dövlətin iqtisadiyyata maksimal həddi, hər şeydən əvvəl, onun həyata keçirdiyi iqtisadi siyasətin strukturunda öz əksini tapır. Onlara makroiqtisadi siyasət, pul-kredit siyasəti, büdcə-vergi siyasəti, investisiya siyasəti, konyuktur siyasət, struktur siyasət, sosial siyasət, regional siyasət, xarici iqtisadi siyasət və s. aid edilə bilər.

İqtisadi siyasətin bu qeyd olunan istiqamətləri dövlətin iqtisadiyyata maksimal təsirini əks etdirməklə özündə xüsusi iqtisadi tənzimləmə mexanizmləri, vasitələri və metodlarını birləşdirir. Burada dövlət tənzimlənməsinin əsas funksiyaları ümumi halda istiqamətləndirici, koordinasiyaedici, stimullaşdırıcı, nəzarətedici, sosial və s. kimi təsnifləşdirilə bilər.

Bu funksiyalardan ən başlıcalarını aşağıdakı ardıcıllıqla qruplaşdırmaq olar: qanunvericiliyin formalaşdırılması; milli iqtisadiyyatın təhlükəsizliyinin təmini və xarici təhlükələrdən müdafiə; makroiqtisadi sabitliyin təmini və mümkün qədər inflyasiyaya yol verməmək, milli valyutanın sabitliyini təmin etmək; institusional islahatların həyata keçirilməsi; ictimai xidmətlərin göstərilməsi; sosial baxımdan zəif əhali təbəqəsinin müdafiəsi və təminatı; təbiətin qorunması və ekoloji təhlükəsizliyin təmini; iqtisadiyyatın strukturunda səmərəli dəyişikliklərin edilməsi; bazar qusurlarının, çatışmazlıqlarının aradan qaldırılması və ya qarşısının alınması; dövlət sahibkarlığı ilə bağlı olan müəssisələrini idarə edilməsi.

İqtisadiyyatın dövlət tənzimlənməsinin obyektiv mümkünlüyü, iqtisadi inkişafın, istehsalın təmərküzləşməsinin və kapitalın müəyyən səviyyəsində meydana çıxır. Bu mümkün-

AUDİT 2023, 1 (39), səh. 174-182.
AUDIT 2023, 1 (39), pp. 174-182.
АУДИТ 2023, 1(39), стр. 174-182.

lüyün həqiqətə çevrilməsi iqtisadiyyata dövlət tənzimlənməsinin qarşıya çıxardığı problemləri həll etmək imkanı ilə bağlanmalıdır.

Müasir şəraitdə iqtisadiyyatın dövlət tənzimlənməsi təkrar istehsal prosesinin tərkib hissəsidir. O, müxtəlif vəzifələri yerinə yetirir ki, bunlara aşağıdakıları əlavə etmək olar:

– iqtisadi artımı stimullaşdırmaq;
– məşğulluğu tənzimləmək;
– sahə və struktur irəliləyişlərini maraqlandırmaq;
– ixracı dəstəkləmək;
– prioritet sahələri müəyyənləşdirmək və s.

Məlum olduğu kimi, qloballaşma şəraitində dövlət ölkənin təhlükəsizliyinin təmin olunması və ümummilli maraqların qorunması naminə xarici iqtisadi fəaliyyəti (XİF) də tənzimləyir. XİF-in dövlət tənzimlənməsi kriteriyalarından asılı olaraq o, müxtəlif metodlar vasitəsi ilə həyata keçirilir: iqtisadi, inzibati, tarif və qeyri-tarif.

XİF-in tənzimlənməsinin iqtisadi metodları ticarət siyasətinin iqtisadi alətlərinin istifadəsinə əsaslanır ki, bunlara gömrük rüsumları, vergi (ƏDV, aksizlər və s.) və gömrük yığımları aiddir. Bu alətlərdən istifadə edərək, dövlət XİF-in subyektlərinin iqtisadi maraqlarına və uyğun olaraq onların davranışına təsir göstərir, amma bununla belə sözügedən subyektlərin tam operativ müstəqilliyinə xələl gətirmir. Bu metodlar bazar münasibətlərinin təbiətinə daha çox uyğun gəlir və məhz buna görə də müasir şəraitdə XIF-in tənzimlənməsində əhəmiyyətli rol oynayırlar [5, s.217].

İnzibati metodlara inzibati qaydalar, qadağalar, normativlər daxildir və bu metodun vasitəsi ilə dövlət XİF-in subyektlərinə birbaşa təsir göstərir, ictimai maraqların naminə onların fəaliyyətlərinin müxtəlif tərəflərini məhdudlaşdırır. Bir qayda olaraq, inzibati metodlar bazar münasibətlərinin təbiətinə yaddır və buna görə də onların tətbiqi sferası ilbəil «sıxılmaqdadır».

Tarif metodları XİF-in tənzimlənməsinin müasir dövrdə iqtisadi əsasları kimi çıxış edirlər. Sözügedən metodlar birmənalı şəkildə daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmişdir. Tarif tənzimlənməsi sistemində həlledici rolu idxal rüsumları oynayırlar.

İxrac rüsumları isə bazar münasibətlərinin təbiətinə zidd olduğundan beynəlxalq və regional ittifaqlar və razılaşmalar bu rüsumların beynəlxalq ticarətdə və ölkənin xarici iqtisadi əlaqələri sistemində istifadə olunmasını tövsiyə etmirlər. Ümumən, gömrük rüsumları xarici iqtisadi əlaqələrin qurulmasında və strateji istiqamətlərinin müəyyənləşdirilməsində və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında əhəmiyyətli tənzimləyici-katalizator kimi çıxış edir.

Dünya təcrübəsində ölkələr gömrük-tarif tənzimlənməsini tətbiq etməklə bir sıra iqtisadi, o cümlədən də tarif siyasətinin həyata keçirilməsini daha dayanıqlı və nəzarətediləbilən səviyyədə saxlamaq üçün istifadə edirlər. Bir qayda olaraq bu müdaxilənin həyata keçirilməsi üçün proteksiyanın səmərəli səviyyəsindən istifadə etmək və bununla əlaqədar olaraq tariflərin arzuolunan səviyyələrinin təsirlərinin (həm idxala, həmçinin də ixraca) müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

## Y E K U N

İqtisadiyyatın dövlət tənzimlənməsinin konkret istiqaməti hər hansı bir ölkədə müəyyən dövrdə iqtisadi və sosial prioritetlərin mürəkkəbliyi və xarakteri ilə müəyyən olunur.

Qloballaşma şəraitində ölkənin iqtisadi təhlükəsizliyi və müstəqilliyinin, ümumən milli iqtisadiyyatın inkişaf etdirilməsində xarici iqtisadi fəaliyyətin müstəsna rolunu nəzərə alaraq dövlət daima bu prosesə də fəal müdaxilə edir, onu tənzimləyir. Ümumilikdə götürüldükdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi metodları iki qrupa ayrılır: tarif metodları və qeyri-tarif metodları. Artıq Azərbaycan dünya iqtisadiyyatının qloballaşması və beynəlmiləlləşməsi, şəraitində öz qapılarını beynəlxalq aləmə daha çox açan, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla aktiv iqtisadi, siyasi, elmi-texniki, mədəni və s. əlaqələr) yaradan bir ölkəyə çevrilmişdir. Bu əlaqələr içərisində xarici ticarət daha önəmli yer tutur. Ölkəmiz dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli müqavilələr bağlayaraq, qarşılıqlı faydalı ticarət əlaqələri yaradır, ölkənin inkişafı üçün xarici texnika və texnologiya idxal edir.

Onu da qeyd edək ki, qloballaşma şəraitində formalaşan milli iqtisadiyyatlar açıq iqtisadiyyatlar olduğundan onların səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə beynəlxalq rəqabət qabiliyyətliliyi və ölkədə həyata keçirilən xarici iqtisadi siyasətin keyfiyyətindən asılıdır. Ölkəmizdə bazar münasibətlərinə əsaslanan və özünün inkişaf qabiliyyətinə malik olan sosialyönümlü müstəqil milli iqtisadiyyatın formalaşması və onun dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyası konkret şəraitdə ölkənin mənafelərinin təmin olunması, xarici iqtisadi siyasətin azad ticarət və himayədarlığın metodlarının əlaqələndirilməsi istiqamətində həyata keçirilir [3, s.64]. Bu zaman xarici iqtisadi əlaqələrin liberallaşdırılması milli iqtisadiyyatın tənzimlənməsi konsepsıyası ilə elə uzlaşdırılır ki, ölkənin xarici iqtisadi asılılğı təhlükəli xarakter almasın və hər bir tənzimlənmə tədbiri iqtisadiyyatın inkişafına müsbət təsir göstərsin.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Ali məktəblər üçün dərslik, “Elm” nəşriyyatı, Bakı, 2006, 834 s.
2. Bayramov Ə.Ə. Regional iqtisadi inteqrasiya – nəzəriyyə və praktika. Bakı, 1997, 160 s.
3. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Metodik vəsait, Bakı, “İqtisad Universiteti”, 2011, 120 s.
4. Əliyev A.Ə. “Azərbaycanın xarici ticarət-iqtisadi əlaqəsi”. Bakı ,“Ozan” nəşriyyatı, 2001, 203 s.
5. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., Dadaşov İ.Ş. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. Monoqrafiya. Bakı, “Elm” nəşriyyatı, 2003, 684 s.
6. Əliyev A.Ə., Şəkərəliyev A.Ş. “Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti”. “Elm” nəşriyyatı, Bakı, 2002, 209 s.
7. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Adiloğlu nəşriyyatı, Bakı, 2008, 423 s.
8. “Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində”// https://hafta.az/heyder-eliyev-yolu-azerbaycan-inkisafin-yeni-merhelesinde-72165-xeber.html

**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

*Habil Huseyn Aslanov,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Baku Business University,*
*E-mail:dosent1966@mail.ru*
*© H.H. Aslanov, 2023*

# ASSESSMENT OF THE NEED AND ADVANTAGES OF STATE INTERVENTION IN THE ECONOMY IN THE CONDITIONS OF MARKET ECONOMY

## A B S T R A C T

National Leader Heydar Aliyev, the architect of independent state building in Azerbaijan, laid the foundations of the state regulation system that meets modern requirements in the economy, and in a complex situation, he formed an efficient state mechanism based on market economy principles which is completely different from the administrative-emirate system.

Independent state-building in Azerbaijan, its implementation based on the principles of market economy and the transformation of our country into an equal member of the system of international relations set very important and completely new tasks for the economy of our republic, including the system of regulating foreign economic relations.

In modern times, state regulation of the economy is not denied in any civilized country. The free market economy is not capable of solving all the social and economic problems of modern society, therefore the state's intervention in the economy becomes necessary in areas that the market economy cannot regulate. World experience shows that the state plays a decisive role in ensuring the normal functioning of every economic system. It can be said that in almost all countries, the state has the capacity to influence economic and social development to a great extent. The article focuses on the study of these and other issues.

**Keywords:** state regulation of the economy, economic functions of the state, economic policy, economic system, economic security, market economy, tariff regulation.

**AUDİT 2023, 1 (39), səh. 174-182.**
**AUDIT 2023, 1 (39), pp. 174-182.**
**АУДИТ 2023, 1(39), стр. 174-182.**

*Асланов Габиль Гусейн оглы,*
*доктор философии по экономике, доцент,*
*Бакинский Университет Бизнеса,*
*E-mail:dosent1966@mail.ru*
*© Асланов Г.Г., 2023*

# ОЦЕНКА НЕОБХОДИМОСТИ И ПРЕИМУЩЕСТВ ГОСУДАРСТВЕННОГО ВМЕШАТЕЛЬСТВА В ЭКОНОМИКУ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

## Р Е З Ю М Е

Общенациональный Лидер Гейдар Алиев, архитектор независимого государственного строительства в Азербайджане, заложил основы системы государственного регулирования, отвечающей современным требованиям в экономике, и в сложной ситуации сформировал действенный государственный механизм, основанный на принципах рыночной экономики, отличной от административно-эмиратской системы.

Независимое государственное строительство в Азербайджане, его осуществление на принципах рыночной экономики и превращение нашей страны в равноправного члена системы международных отношений поставили перед экономикой нашей республики очень важные и совершенно новые задачи, в том числе перед системой регулирования внешнеэкономических связей.

В современное время государственное регулирование экономики не отрицается ни в одной цивилизованной стране. Свободная рыночная экономика не способна решить все социальные и экономические проблемы современного общества, поэтому вмешательство государства в экономику становится необходимым в сферах, которые рыночная экономика не может регулировать. Мировой опыт показывает, что государство играет решающую роль в обеспечении нормального функционирования любой экономической системы. Можно сказать, что почти во всех странах государство способно в значительной степени влиять на экономическое и социальное развитие. Статья посвящена изучению этих и других вопросов.

**Ключевые слова:** государственное регулирование экономики, экономические функции государства, экономическая политика, экономическая система, экономическая безопасность, рыночная экономика, тарифное регулирование.

*Məqalə redaksiyaya daxil olmuşdur: 22.02.2023*
*Təkrar işləməyə göndərilmişdir: 01.03.2023*
*Çapa qəbul olunmuşdur: 07.03.2023*

*Дата поступления статьи в редакцию: 22.02.2023*
*Отправлено на повторную обработку: 01.03.2023*
*Принято к печати: 07.03.2023*

*The date of the admission of the article to the editorial office: 22.02.2023*
*Send for reprocessing: 01.03.2023*
*Accepted for publication: 07.03.2023*